# Azərbaycan-İndoneziya əlaqələri daha da genişlənir



Azərbaycan ilə İndoneziya arasında əlaqələrin inkişafı, o cümlədən beynəlxalq müstəvidə qarşılıqlı dəstək məmnunluq doğurur və bunun davam etdirilməsi vacibdir.

Bu fikir İslam Əməkdaşlıq Təşkilatının Fələstin və Əl-Qüds Əl-Şərif üzrə V Fövqəladə zirvə konfransında iştirak etmək üçün Cakartada səfərdə olan Azərbaycanın Baş nazirinin müavini Elçin Əfəndiyevin İndoneziyanın vitse-prezidenti H.Muhammad Yusuf Kalla ilə görüşündə səsləndirilib. Görüşdə ölkələrimiz arasında əməkdaşlığın şaxələndirilməsi və humanitar sahədə əlaqələrin istiqamətləri üzrə fikir mübadiləsi aparılıb.

Baş nazirin müavini İndoneziyanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində ədalətli mövqe nümayiş etdirdiyinə görə təşəkkürünü bildirib.

H.Muhammad Yusuf Kalla Prezident İlham Əliyevin İndoneziyaya səfərini səbirsizliklə gözlədiklərini söyləyib. O, 2013-cü ildə prezident seçkilərini müşahidə etmək üçün Azərbaycana səfərini xatırladaraq seçkilərin şəffaf və demokratik şəraitdə keçirildiyini vurğulayıb. Bakı şəhərinin gözəlliyi haqqında təəssüratlarını bölüşən vitse-prezident ölkəmizin sürətli inkişafını xüsusi qeyd edib və İndoneziya ilə Azərbaycan arasında əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinin zəruriliyini vurğulayıb. İndoneziyanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini qeyd edən Yusuf Kalla ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarı olduğunu vurğulayıb.

İndoneziyanın turizm naziri Arif Yəhya ilə görüşdə iki ölkə arasında iqtisadi əməkdaşlığın, xüsusən turizm sektorunda böyük potensialın olduğu vurğulanıb. İkitərəfli əməkdaşlığın konkret istiqamətləri, o cümlədən tələbə və tədqiqatçı mübadiləsi, Azərbaycanda və İndoneziyada keçirilən beynəlxalq tədbirlərdə iştirak və qarşılıqlı maraq kəsb edən digər məsələlər üzrə müzakirələr aparılıb. Söhbət zamanı Azərbaycan ilə İndoneziya arasında turizm sahəsində əlaqələrin genişlənməsində qarşılıqlı maraq ifadə olunub.

İndoneziyanın təhsil və mədəniyyət naziri Anies Basvedan ilə keçirilən görüşdə isə ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi və təşviq olunmasının zəruriliyi qeyd edilib. Mədəniyyət sahəsində hər iki ölkədə keçirilən beynəlxalq sərgi-konfranslarda iştirakın təmin olunması, kino günlərinin təşkili və digər mövzular ətrafında müzakirələr aparılıb.

Görüşlərdə Azərbaycanın İndoneziyadakı səfiri Tamerlan Qarayev də iştirak edib.

*Vüqar AĞAYEV,*
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Cakarta*